# Avropa, Rusiya və Azərbaycan bəstəkarlarının proqramlı fortepiano silsilələri

**Məmməd-zadə Əsmər (BMA)**
**Fakultə: Musiqi tarixi və nəzəriyyəsi**
**İxtisas: musiqi nəzəriyyəsi**
**Kurs: II**
**Elmi rəhbər: BMA-nın professoru, əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Seyidova**

Proqramlı fortepiano silsilələri fortepiano musiqisinin vacib sahələrindən biri olaraq dünya musiqi tarixində əhəmiyyətli yer tutur. Bizim maqistr dissertasiyası fortepiano üçün proqramlı silsilə əsərlərinə həsr edilib. Bu məqsədlə R.Şumanın "Karnaval", M.P.Musorqskinin "Sərgidən şəkillər", P.İ.Çaykovskinin "İlin fəsilləri" və Q.Qarayevin "Atlı uşaq pyesi" əsərlərini dissertasiyamızda təqdim edirik.

Şumanın özünəməxsus yaradıcılıq üslubunun bütün cəhətləri məhz "Karnaval" fortepiano silsiləsində öz tam əksini tapmışdır. Kontrast xarakterli pyeslərin növbələşməsində lad-tonallıq planı, musiqi ifadə vasitələri və s. böyük rol oynayır. Şumanın "Karnaval" əsəri kimi rus musiqisinin parlaq nümayəndəsi M.Musorqskinin "Sərgidən şəkillər" fortepiano silsiləsi də XIX əsr proqramlı fortepiano musiqisi sahəsində ən yüksək fəxri yerlərdən birini tutur. Musorqskinin parlaq dünyagörüşü və musiqi dilinin səmimiliyi Şumana yaxın idi. "Səgidən şəkillər" və "Karnaval" fortepiano silsilələri arasın-

dakı paralellər həyati obraz və hadisələrin gedişatını, müxtəlifliyini, proqramlılıq xüsusiyyətini əks etdirməsindədir. Hər iki bəstəkarın silsiləsində hər bir miniatürün xarakter və təsvir quruluşunu təyin edən öz adı var. Ayrıca pyeslər arasında da bir çox paralellər var və biz bunları təhlil zamanı üzə çıxarmışıq. Həmçinin dissertasiyada Çaykovskinin 12 pyesdən ibarət "İlin fəsilləri" fortepiano məcmuəsini təhlil edərək onun "Sərgidən şəkillər" fortepiano silsiləsiylə bənzər nüanslarını qeyd etmişik.

Proqramlı fortepiano musiqisi Azərbaycan bəstəkarlarının da yaradıcılığında öz davamını və inkişafını tapmışdır. Biz işimizdə Qara Qarayevin "Atlı uşaq pyesi" silsiləsinin təhlilinə də yer vermişik. Bu silsilədəki pyeslərin təkcə adları deyil, musiqisinin texniki və bədii obrazlılığı onun janr xüsusiyyətini müəyyən etməyə imkan verir. Proqramlı fortepiano pyesləri və prelüd silsilələri tarix boyu həmişə bir çox görkəmli bəstəkarların diqqət mərkəzində olmuş və janr quruluşu baxımından geniş, həcmli olması kompozisiya formalarında yeni bədii vasitələrin istifadə edilməsinə imkan yaratmışdır.